

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

Sayı: 24 (24.510)

26 iyun 2026-cı il, cümə

ŞƏRQ QAPISI

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Qalib dövlətin Zəfər Ordusu

## Ulu Öndər Heydər Əliyevin qələmi ilə yazılan ordumuzun şanlı tarixi



## Prezident İlham ƏLİYEV:

*“Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir.”*

*“Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır”*, – deyən Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti ilə burada – Naxçıvanda çıraq işığında dahi şəxsiyyətin qərarları, silahını yerə qoymayan oğulların qəhrəmanlığı ilə başladı ordu quruculuğu. Ulu Öndər hələ sovet dövründə, Azərbaycana rəhbərlik etdiyi illərdə milli zabit kadrların yetişdirilməsini prioritet hesab edirdi. Uzaqgörən siyasət xadimi 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail oldu. O, azərbaycanlı gəncləri SSRİ-nin qabaqcıl hərbi məktəblərinə təhsil almağa göndərirdi. Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynayan ordu quruculuğu prosesi Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdışından sonra ən yüksək inkişafına çatdı. Bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verildi və cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yaratdı. Onun rəhbərliyi ilə Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olundu, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradıldı. Dahi rəhbərin Azərbaycan dövlətinin iqtisadiyyatının gücləndirilməsi istiqamətində atdığı addımlar ordu quruculuğunun da möhkəmlənməsinə zəmin yaratdı. Azərbaycan Ordusu elmi-nəzəri əsaslar üzərində qurulmağa başladı. Dahi rəhbər Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının həm də yüksəkixtisaslı milli zabit kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq hərbi akademiyanı yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini formalaşdırdı. Naxçıvanda hərbi təhsil ocağının təməli də Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur.

Səhifə 3

# Qalib xalq, qətiyyətli Sərkərdə, müzəffər Ordu



Zəfər paradı xalqın tarixi qürurunun, dövlətin gücünün və ordunun yenilməzliyinin rəmzidir. Bu paradın mərkəzində isə Müzəffər Ali Baş Komandan dayanır. O təkcə silahlı qüvvələrin rəhbəri deyil, həm də milli iradənin, siyasi qətiyyətin və tarixi məsuliyyətin daşıyıcısıdır. Azərbaycan tarixində hərbi paradlar dövlətçilik ənənələrinin parlaq təzahürünə çevrilib. Bu paradlar illərlə aparılan məqsədyönlü siyasətin, ordu quruculuğunun və xalq-ordu birliyinin nəticəsini bütün dünyaya nümayiş etdirdi. Əsası Ulu Öndər tərəfindən qoyulan, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında formalaşan güclü ordu müasir texnologiya, yüksək peşəkarlıq və sarsılmaz ruhla seçilir. Hərbi paradlarda bu güc intizamlı addımlarla meydandan keçən müzəffər Ordunun əsgərlərinin əllərində dalğalanan bayraqlar və qalib ordunun inamlı baxışları ilə təcəssüm olundu. Azərbaycanın 2020-ci ildəki Qarabağ zəfəri ölkəmizin tarixində mühüm bir yer tutur. Bu qələbənin rəmzi və lideri isə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. Prezident İlham Əliyev bu möhtəşəm zəfərin arxasında duran, xalqını birləşdirən və qələbəyə inam verən liderdir. Prezident İlham Əliyevin güclü liderliyi və hərbi strategiyaları Azərbaycanın həm ordu quruculuğunda, həm də müharibə zamanı effektiv hərbi əməliyyatlarda qələbə qazanmasında əsas rol oynadı.

Zəfər paradı Azərbaycan üçün, sadəcə, müharibədə qazanılan qələbənin göstəricisi deyil, həm də həqiqətin, ədalətin qələbəsidir. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ötən illər ərzində Azərbaycanda bir neçə möhtəşəm hərbi parad keçirilib. Üçrəngli, ay-ulduzlu bayrağımızın önündə addımlayan igid oğullarımızı, nümayiş etdirilən müasir hərbi texnikalarımızı dəfələrlə fəxrlə, qürurla seyr etmişik. Amma 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında Zəfər paradı, 2023-cü il noyabrın 8-də Xankəndidə, eləcə də zəfərin 5-ci ildönümündə keçirilən paradlar bir başqa qürur, bir ayrı fəxarət sevinci yaratdı hər birimizdə. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi möhtəşəm qələbələrə həsr olunan bu təntənəli paradlar xalqımızın əzminin, gücünün, yenilməzliyinin zirvəsi kimi tariximizə silinməz izlərlə həkk olundu. 2020-ci ilin Zəfər paradı Prezident İlham Əliyevin liderliyində Azərbaycan xalqının nəyə qadir olduğunu, həm də müasir dövrün güclü və vətənpərvər liderini dünyaya göstərdi.

Vətən müharibəsində Azərbaycan xalqı təkcə öz ərazilərini geri qaytarmadı, həm də birliyini, vətənpərvərliyini nümayiş etdirdi. Zəfər paradı isə qalib ordumuzun düşmən üzərində qələbəsinin tərənnümü oldu. Qalib Azərbaycan əsgərinin paytaxtın baş meydanında məğrur yürüşü ümumxalq həmrəyliyimizin təcəssümü və düşmənə qarşı yumruq kimi birləşmiş bir xalqın müqəddəs Vətən sevgisinin təzahürü oldu. Prezident İlham Əliyevin Zəfər paradındakı çıxışında dediyi kimi: ***"Bütün gücümüzü səfərbər edərək bir "dəmir yumruq" yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim "dəmir yumruğ"umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu "dəmir yumruq" düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu, demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq".***

2020-ci ilin dekabrında Bakıda keçirilən Zəfər paradı Azərbaycan tarixində milli qürurun, ordumuzun gücünün və xalqımızın iradəsinin təntənəsi olmuşdu. 2023-cü ildə Xankəndidə keçirilən hərbi parad Azərbaycanın suverenliyinin tam bərpa olunduğunu dünyaya bəyan etmişdi. Vətən müharibəsində şanlı qələbəmizin beşinci ildönümünə həsr olunmuş parad isə suverenliyimizin və ərazi bütövlüyümüzün etibarlı əllərdə olduğunu bir daha sübut etdi.

Ölkə başçımız İlham Əliyev hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti seçiləndə bəyan etmişdi ki, nəyin bahasına olursa olsun, biz öz doğma torpaqlarımızı azad edəcəyik. Hər sözü imzası qədər keçərli olan Prezident İlham Əliyev xalqımıza verdiyi bu vədinə də əməl etdi. 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə Prezident İlham Əliyevin müdrik rəhbərliyinin, xalq-ordu birliyinin və milli iradənin təntənəsidir. Bu qələbə təkcə torpaqlarımızın azadlığı deyil, həm də Azərbaycan dövlətçiliyinin əbədi və dönməz qüdrətinin təsdiqidir. Azərbaycan qalib dövlət kimi şanlı zəfərlə hər zaman fəxr edəcək. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz – bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır".***

2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında Azərbaycanın Zəfər paradı keçirildi. Bu paradda texnikanın gücünü və ordunun böyük potensialını hər kəs qürur və iftixarla izlədi. Zəfər paradı azərbaycanlılar üçün qürur, şərəf, ləyaqət simvolu oldu, ermənilər üçün isə məğlubiyyət kimi yaddaşlarda qaldı. Qəhrəman oğullarımızın darmadağın etdiyi düşmən texnikalarının nümayişi bir daha dünyaya Azərbaycanın "dəmir yumruğ"unun qarşısında heç bir gücün dayana bilməyəcəyinin mesajını çatdırdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər paradındakı çıxışında vurğuladığı kimi: ***"Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir".***

Bu günü 30 il gözləyən xalqımız faciələr, məşəqqətlər gördü. Müstəqilliyimizi belə əlimizdən almaq istədilər. Amma bacarmadılar. Azərbaycan illərlə ikili standartlara, təzyiqlərə məruz qalsa da, dik durmağı bacardı. Ona görə bacardı ki, qətiyyətli, prinsipial rəhbəri, xalqın sözünü deyən, xalqın güvəndiyi Lideri, ən əsası da Müzəffər Ali Baş Komandanı vardı.

**Məhəbbət MİRZƏYEVA**



# Qalib dövlətin Zəfər Ordusu



# Ulu Öndər Heydər Əliyevin qələmi ilə yazılan ordumuzun şanlı tarixi

(əvvəli 1-ci səhifədə)

## Tapşırıq yerinə yetirildi

Görkəmli dövlət xadiminin ordu quruculuğu sahəsində gördüyü işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə formalaşması başa çatdırıldı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi-vətənpərvərlik tərbiyəsi gücləndirildi. Quru Qoşunları, Hərbi Dəniz, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının birləşmə və bölmələrində müasir standartlar ön plana çəkildi. Dahi rəhbərin bütün arzuları kimi güclü ordu istəyi də yerinə yetirildi. Azərbaycan ötən illər ərzində Qafqazda söz sahibinə çevrilib qalib dövlət şərəfinə nail oldu. Dövlətimizin iqtisadi imkanları artdıqca orduya daha çox vəsait ayrılmasına imkan yarandı. Ordumuz dövlətimizin, müstəqilliyimizin və təhlükəsizliyimizin dəmir qalxanına, xalqımızın yenilməz dayağına çevrildi.

Ordumuzun gücü daha da artırıldı və qüdrətli müdafiə sənayesi yaradıldı. Qısa müddətdə hərbi sənayesi formalaşan Azərbaycanda bu gün ən müasir silahlar, döyüş sursatları və hərbi texnikalar istehsal olunur. Ölkənin müdafiə qabiliyyəti öz sənaye istehsalının hesabına gücləndirilir. Bütün bunların nəticəsi olaraq biz zəfər qazandıq – dövlət-xalq-ordu birləşərək, "dəmir yumruğ"a dönərək. 44 günlük Vətən müharibəsində aparılan döyüş əməliyyatları, bu əməliyyatların ən möhtəşəmi sayılan Şuşa zəfərində Azərbaycan Ordusu öz gücünü bir daha nümayiş etdirdi. Prezident cənab İlham Əliyev Azərbaycanda uğurla həyata keçirilən ordu quruculuğu haqqında deyib: ***"Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik".***

Bu gün Azərbaycan özünün hərbi sənaye potensialını inkişaf etdirərək atıcı silahlar, döyüş sursatları, zirehli texnikalar və qabaqcıl pilotsuz uçuş aparatları (PUA) istehsal edən güclü istehsal mərkəzinə çevrilib. İstehsal olunan məhsullar təkcə yerli ordunu təmin etmir, həm də dünya bazarına ixrac olunur. Azərbaycan Ordusunun texnikası bu gün həm say, həm keyfiyyət, həm də müasir döyüş konsepsiyalarına uyğunluğu baxımından regionda ön sıradadır. Müasir texnologiyalar, peşəkar hərbi kadrlar, milli istehsal potensialı və strateji tərəfdaşlıqlar sayəsində Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığı səviyyəsindədir. Bu güc ordumuzun təkcə müdafiə qabiliyyətini deyil, həm də regionda sülhün və sabitliyin qorunmasında Azərbaycanın rolunu daha da möhkəmləndirir.

## Ulu Öndər Heydər ƏLİYEV:

*"Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır."*

## Postsovet məkanında ilk Qələbə paradı

Şanlı Vətən savaşı gələcək nəsillərə nümunə olacaq bir qələbə ilə başa çatdı. Elə bir qələbə ki tarixdə hələ belə bir mübarizə görülməmişdi. Bu müharibədə qazanılan zəfər təkcə öz tariximizi yox, həm də regionun və dünyanın tarixini yenidən yaratdı. Qələbədən iki il öncə Ali Baş Komandanımız ***"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan Bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək"***, – deyirdi. Dedi və həmişəki kimi sözünə əməl etdi. Həmin gün gəldi. 2020-ci ilin dekabr ayında Bakının baş meydanında keçirilən Zəfər paradı ordumuzun qüdrətini dünyaya nümayiş etdirdi. Postsovet məkanında 1945-ci ildən sonra keçirilən ilk Qələbə paradına da biz imza atdıq. Hamı gördü ki, bu xalq torpaqlarının işğalına 30 il səbir edə bilər, amma bununla barışa bilməz. 30 ildə öz ordusu haqqında "miflər" yaradan, "keçilməz sədləri" ilə öyünən erməni dövlətinin silahlı birləşmələri, "dağılmaz-keçilməz" sədləri cəmi bir saatda darmadağın edildi. Zəfər paradı azərbaycanlılar üçün qürur, şərəf, ləyaqət simvolu kimi yaddaşlarda qaldı.

2023-cü ilin sentyabr ayında keçirilən lokal xarakterli antiterror əməliyyatında Vətən oğulları cəmi 23 saat 44 dəqiqəyə suverenliyimizi bərpa etdi, 30 il ərzində həllini gözləyən böyük bir problem ortadan qaldırıldı. 2023-cü ildə Xankəndidə keçirilən hərbi paradda addımlayan Azərbaycan əsgərinin ayaq səsi isə əbədi qayıdışın simvolu oldu.

Vətən müharibəsində qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi parad zamanı nümayiş etdirilən texnikalar isə Azərbaycan Silahlı Qüvvələrinin çoxşaxəli, müasir və inteqrasiya olunmuş döyüş potensialını aydın şəkildə əks etdirdi. Paradda zirehli avtomobillərdən uzaqmənzilli raket komplekslərinə, hava hücumundan müdafiə sistemlərindən yüksək dəqiqlikli pilotsuz uçuş aparatlarına, artilleriya sistemlərinə qədər geniş silah arsenalı nümayiş etdirildi. Bu müxtəliflik ordunun, eyni zamanda həm müdafiə, həm də əməliyyat-taktiki hücum funksiyalarını effektiv həyata keçirməsinə imkan verir.

Torpaqlarımızın azadlığı uğrunda Aprel və Günnüt zəfərindən başlayan yol xalqımızın birliyi dövlətimizin gücü ilə Şuşada böyük zəfərlə tamamlandı. Biz xalqımızın iradəsi ilə Böyük Qayıdışa da nail olduq.

Müzəffər Sərkərdənin də dediyi kimi: ***"İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur".***

Bəli, elin dar günündə bu xalqın hər evi səngərə, hər fərdi Vətəni qoruyan müsəlləh əsgərə dönür. Çünki Azərbaycan Ordusu təkcə hərbi forma geyinmiş əsgər, gizir və zabitdən ibarət deyil. O, bütöv xalqın iradəsini, birliyini və fədakarlığını özündə birləşdirən qüvvədir.

Ordumuz son çörək payını səngərdəki əsgərə göndərən analardan, təqaüdünü ordunun güclənməsi üçün bağışlayan ahıl insanlardan, həyat yoldaşına olan sonsuz sevgisini Vətənə qurban verib şəhid tabutunu çiynində daşıyan Azərbaycan qadınından, bir ovuc torpağa gözünün nurunu, canını qurban verən oğullarımızdan, Vətənimizin hər bir qarışının keşikçisi olan Vətən sevdalı ürəklərdən ibarətdir.

Bu gün hər bir azərbaycanlı Vətənə xidməti özünün birinci dərəcəli vətəndaşlıq borcu sayır, şərəf bilir. Hər kəs öz sahəsində müstəqil, qalib Azərbaycan üçün döyüşür. Və bu gün biz 108 yaşlı qalib ordumuzla fəxr edir, 26 İyun – Silahlı Qüvvələr Gününü azad Şuşada qeyd etməyin xoşbəxtliyini yaşayırıq.

**Ramiyə ƏKBƏROVA**

# Azərbaycan-Türkmənistan:
## geosiyasi əhəmiyyəti artan strateji tərəfdaşlıq



Azərbaycan və Türkmənistan arasında münasibətlər son illərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək çoxşaxəli əməkdaşlıq modeli formalaşdırıb. Əsasını tarixi yaxınlıq, ortaq mədəni və dil bağları təşkil edən bu əlaqələr hazırda siyasi dialoq, enerji, nəqliyyat-logistika və humanitar sahələrdə praktiki əməkdaşlıq üzərində inkişaf edir. İki ölkə arasında münasibətlərin strateji xarakter almasının mühüm göstəricilərindən biri 2017-ci ildə imzalanmış Strateji tərəfdaşlıq haqqında Bəyannamədir. Bu sənəd Azərbaycan-Türkmənistan əlaqələrinin hüquqi-siyasi əsaslarını daha da möhkəmləndirərək əməkdaşlığın uzunmüddətli inkişaf istiqamətlərini müəyyənləşdirib. Sonrakı dövrdə əldə olunan nəticələr, həyata keçirilən birgə layihələr və yüksək səviyyəli qarşılıqlı səfərlər strateji tərəfdaşlığın real məzmunla zənginləşdiyini göstərir. Tərəflər BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və MDB çərçivəsində qarşılıqlı dəstək nümayiş etdirir, regional məsələlərdə ortaq mövqelərdən çıxış edirlər. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv qəbul edilməsində Türkmənistanın fəal dəstəyi siyasi etimadın yüksək səviyyəsini göstərən mühüm amillərdəndir.

İyunun 22-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana səfəri və bu çərçivədə keçirilən yüksək səviyyəli görüşlər isə iki ölkə arasında münasibətlərin yeni mərhələyə keçdiyini göstərdi. Səfər zamanı imzalanan sənədlər gömrük, enerji, nəqliyyat, iqtisadiyyat və sosial sahələrdə əməkdaşlığın genişlənməsinə hüquqi və institusional əsas yaradır. Bu sənədlər həm də əlaqələrin yalnız siyasi bəyanatlar səviyyəsində deyil, konkret layihələr və icra mexanizmləri ilə möhkəmləndirildiyini təsdiqləyir. Prezidentlərin mətbuata verdiyi bəyanatlarda vurğulanan məqamlar göstərir ki, Azərbaycan-Türkmənistan münasibətləri artıq təkcə tarixi yaxınlıqla deyil, həm də qarşılıqlı maraqlara əsaslanan strateji əməkdaşlıq çərçivəsində formalaşır. Xüsusilə enerji təhlükəsizliyi, Xəzər regionunda nəqliyyat dəhlizlərinin inkişafı və iqtisadi inteqrasiya bu əməkdaşlığın əsas istiqamətlərini təşkil edir.




Səfər çərçivəsində "Dostlug" neftdaşıyan tankerinin Türkmənistana hədiyyə edilməsi isə münasibətlərin simvolik və praktiki ölçüsünü bir araya gətirən mühüm hadisə kimi qiymətləndirilir. Bakı Gəmiqayırma Zavodunda inşa olunan bu tanker Azərbaycanın sənaye potensialını və gəmiqayırma sahəsində əldə etdiyi texnoloji imkanları nümayiş etdirir. Eyni zamanda bu addım Xəzər dənizində nəqliyyat və logistika əməkdaşlığının genişlənməsinə, enerji daşımalarının səmərəliliyinin artırılmasına xidmət edir. "Dostlug" tankerinin təqdimatı Azərbaycan-Türkmənistan münasibətlərinin yüksək etimad və strateji tərəfdaşlıq səviyyəsinə çatdığını göstərməklə yanaşı, gələcəkdə əməkdaşlığın daha da dərinləşəcəyinə dair siyasi mesaj təsiri bağışlayır.

Ölkələr arasında iqtisadi əməkdaşlıq əlaqələrin hərəkətverici istiqamətlərindən biri kimi ön plana çıxır. Son illərdə ölkələr arasında ticarət dövriyyəsində artım müşahidə olunur. Xüsusilə enerji məhsulları, sənaye malları, nəqliyyat xidmətləri və kənd təsərrüfatı məhsulları üzrə əməkdaşlıq genişlənir. Hər iki ölkə Xəzər dənizi hövzəsində yerləşən mühüm iqtisadi tərəfdaşlar kimi qarşılıqlı investisiya imkanlarını da araşdırır. Bu baxımdan, nəqliyyat-logistika sahəsində əməkdaşlıq Azərbaycan-Türkmənistan münasibətlərinin strateji sütunlarından birinə çevrilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı Xəzər üzərindən yükdaşımaların əsas qovşaqları hesab olunur. Son illərdə Çin-Mərkəzi Asiya-Xəzər-Cənubi Qafqaz-Avropa marşrutu (Orta Dəhliz) üzrə yük axınının artması hər iki ölkənin tranzit əhəmiyyətini yüksəldib. Orta Dəhlizin inkişafı çərçivəsində Bakı və Türkmənbaşı limanlarının əməkdaşlığı Avropa ilə Asiya arasında yükdaşımaların daha sürətli və təhlükəsiz həyata keçirilməsinə imkan yaradır. İyunun 22-də Prezident İlham Əliyev Sərdar Berdiməhəmmədovla mətbuata bəyanatında nəqliyyat-logistika istiqamətində əməkdaşlığın perspektivlərinə toxundu, bu sahənin ümumi coğrafiya üçün strateji əhəmiyyətə malik olduğunu vurğuladı. Sitat: ***"Bu gün nəqliyyat-logistika sahəsi haqqında da çox danışıldı. Təbii ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq artıq uzunmüddətli xarakter daşıyır, hətta deyərdim ki, bu təkcə bizim üçün deyil, təkcə qonşularımız üçün deyil, həm də geniş bir coğrafiya üçün strateji əhəmiyyətə malikdir. Çünki bu gün dünyada öz aralarında əməkdaşlıq edən ölkələri birləşdirən çox etibarlı, təhlükəsiz nəqliyyat marşrutları o qədər də çox deyil. Bu, böyük nailiyyətdir".***

Ölkələr arasında humanitar sahədə əlaqələr də dinamik inkişaf edir. Son illərdə Bakı, Gəncə, Aşqabad və Arkadağ şəhərlərində qarşılıqlı Mədəniyyət Günləri keçirilib, elm, təhsil və incəsənət sahələrində əməkdaşlıq genişlənib. Bakı ilə Aşqabadın, Füzuli ilə Arkadağın qardaşlaşmış şəhərlər elan olunması xalqlar arasında münasibətlərin daha da yaxınlaşmasına xidmət edir. Türkmənistanın Qarabağın bərpası prosesinə verdiyi dəstək də münasibətlərin xüsusi xarakterini ortaya qoyur. Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsü ilə Füzuli şəhərində məscidin tikintisi qardaşlıq münasibətlərinin rəmzi addımlarından biri kimi qiymətləndirilir. Prezident İlham Əliyev Sərdar Berdiməhəmmədovla mətbuata bəyanatında humanitar sahədə ikitərəfli əlaqələrin xeyli gücləndiyini vurğuladı, Füzuli şəhərində tikilən məscidi Türkmənistan xalqının Azərbaycana səmimi, dostcasına münasibətinin daha bir göstəricisi kimi dəyərləndirdi: ***"Qarabağın bərpasında köməyə görə Türkmənistana, əziz qardaşım Arkadağ Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova bir daha təşəkkürümü bildirmək istərdim. O, ötən ilin iyulunda ölkəmizə səfər edərkən Füzuli şəhərində məscidin tikintisi təşəbbüsünü irəli sürdü və artıq tikintiyə başlanılıb. Bu, Türkmənistanın, onun Ümummilli Liderinin və bütün qardaş Türkmənistan xalqının Azərbaycana səmimi, dostcasına münasibətinin daha bir göstəricisi idi".***

Səfər çərçivəsində Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Qarabağa gəlişi də xüsusi siyasi və simvolik əhəmiyyət daşıyır. Prezident İlham Əliyevlə birlikdə Füzuli və Şuşaya səfər edən Türkmənistan Prezidenti azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri ilə tanış olub. Dövlət başçıları Füzuli şəhərinin işğal dövründə dağıdılmış ərazilərinə baxıb, bölgənin yenidən qurulması istiqamətində görülən işlər, Türkmənistan tərəfindən Füzulidə inşa olunan məscid barədə məlumat alıblar. Füzulidə həyata keçirilən layihələrin təqdimatı Qarabağın bərpasına verilən beynəlxalq dəstəyin və tərəfdaş ölkələrin bu prosesə marağının göstəricisi kimi qiymətləndirilə bilər.

Prezidentlərin Şuşaya səfəri isə əməkdaşlığın humanitar və mədəni ölçüsünü ön plana çıxarıb. Dövlət başçıları Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksinə baş çəkib, Şuşa məscidində aparılan tikinti işlərinin gedişi ilə tanış olublar. Həmçinin "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıb, Azərbaycanın tanınmış şəxsiyyətlərinin işğal dövründə güllələnmiş büstlərini və Bülbülün ev-muzeyini ziyarət ediblər. Şuşanın tarixi-mədəni irsinin bərpası istiqamətində görülən işlərlə tanışlıq Türkmənistanın Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi layihələrə verdiyi önəmi nümayiş etdirir.

Səfərin diqqətçəkən məqamlarından biri Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova Qarabağ atının hədiyyə olunmasıdır. Türk dünyasının qədim mədəni irs nümunələrindən sayılan Qarabağ atı möhkəm dostluğun, qarşılıqlı etimadın və qardaşlığın rəmzi kimi təqdim edilib. Bu jest iki ölkə arasında münasibətlərin yalnız siyasi və iqtisadi əməkdaşlıqla məhdudlaşmadığını, eyni zamanda ortaq tarixi-mədəni dəyərlər üzərində möhkəmləndiyini göstərir.

İyunun 22-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana gəlişi və Bakıda keçirilən yüksək səviyyəli görüşlər, eləcə də Qarabağ səfəri Azərbaycan-Türkmənistan münasibətlərinin regional geosiyasi kontekstdə artan strateji əhəmiyyətini bir daha nümayiş etdirdi. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əlaqələrin gücləndiyi bir şəraitdə hər iki ölkə Şərq-Qərb Nəqliyyat dəhlizlərinin inkişafında, enerji təhlükəsizliyinin təmin olunmasında və regional sabitliyin möhkəmləndirilməsində mühüm rol oynayır. Bu əməkdaşlıq yalnız ikitərəfli münasibətlər çərçivəsi ilə məhdudlaşmır, eyni zamanda Türk dünyasında inteqrasiya proseslərinin vacib tərkib hissəsi kimi çıxış edir. Son illərdə əldə olunan nəticələr və həyata keçirilən birgə layihələr göstərir ki, Azərbaycan və Türkmənistan arasında münasibətlər qarşılıqlı etimad və ortaq strateji maraqlar əsasında dinamik şəkildə inkişaf edir və gələcəkdə daha geniş miqyas alaraq regionun iqtisadi-siyasi mənzərəsinə əhəmiyyətli təsir göstərəcək.

Nail ƏSGƏROV

# Səmimiyyət, sevgi və gələcəyə əminlik hissi

Bura Şuşadır. Ulu Öndərin ***"Şuşasız Qarabağ olmaz"***, Ali Baş Komandanın isə ***"Şuşasız işimiz yarımçıq qalar"***, – dediyi Şuşa. Tarixdə bənzəri görülməmiş bir qəhrəmanlıqla yenidən özümüzə qayıdan Şuşa. Altı ildir ki, çiçək açan dağlarından Qarabağ şikəstəsinin sədası, güllü-çiçəkli bağlarından isə uşaqların gülüşü gələn cənnət Şuşa. Müzəffər Sərkərdənin, qalib ordunun zəfər şəhəri.



Yenə oradadır – həmişəki kimi qürurla azad Şuşada. Uşaqlara qucaq açır, ***"Gəlin, görüşək"***, – deyir. Onları qucaqlayıb bir-bir alınlarından öpür. Ətrafına toplayıb foto çəkdirir. Səmimiyyətlə saçlarına sığal çəkir. Uşaqların yaşları fərqlidir, amma baxışları eynidir. Onların gözündə inam var, sevgi var, parıltı var. Onlar Şuşanın xilaskarına doğmaları kimi sığınırlar. Sanki "Gələcəyimizi, Şuşamızı bizə qaytardığınız üçün var olun", – deyirlər.

Prezidentin suallarına tez-tələsik cavab verirlər: "Hər şey yaxşıdır, yaxşı oxuyuruq", – deyirlər. Uşaqlardan biri "İlham baba, olar sizinlə öz telefonumuzla şəkil çəkdirək?" – deyə soruşur. Həmin foto çəkilən anda dövlət başçısı uşaqların boyunun ona çatmadığını görüb onları qucaqlayaraq aşağı əyilir. Ətrafındakı uşaqlara gələcəyin ən gözəl dərsini verir. Onların dayağı olduğunu göstərir.

Həmin an Vətən müharibəsində, bu torpaqlar uğrunda canından keçən oğulları və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu sözlərini xatırladım: ***"Elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi yaşamayan gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər, şəhid oldular, qazi oldular".***

Prezident İlham Əliyevin dövlət başçısı olduğu illərdə böyüyən gənclər tariximizi öz qanları ilə dəyişdilər. Bizə qalib xalq adını qazandırdılar. Bu gün isə dövlət başçısına "Dərsimizi yaxşı oxuyuruq", – deyən uşaqlar sabah dövlətimizin parlayan ulduzlarına çevriləcəklər. Biz buna tam əminik. Çünki onlar dövlət başçısının çiynindəki əlini, onlara verdiyi güvən hissini duyaraq böyüyürlər – azad, bütöv Azərbaycanda! Hər bir vətəndaşına əvəzsiz sərvəti kimi baxan bir dövlətdə. Səması daim aydın olan Şuşada, Laçında, Ağdamda...

**✍ Ramiyə ƏKBƏROVA**

# Naxçıvanda aqrar sahədə yeni Dövlət Proqramının müzakirəsi ilə bağlı regional müşavirə keçirilib






İyunun 22-də Naxçıvan iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.






Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il 25 may tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Müşavirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri, Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.









Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən ardıcıl islahatlar kənd təsərrüfatında istehsal və ixrac potensialının artmasına, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə verib. Aqrar sektorda yeni inkişaf mərhələsinə keçidi təmin etmək məqsədilə qəbul edilən Dövlət Proqramı məhsuldarlığın, daxili istehsalın, ixrac imkanlarının və əlavə dəyərin artırılmasını, müasir aqrar xidmətlərin əlçatanlığının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur. Qeyd olunub ki, dövlət tərəfindən təqdim edilən çoxşaxəli dəstək tədbirləri və yeni Dövlət Proqramının yaratdığı imkanlar Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının və sahibkarlığın davamlı inkişafını təmin edəcək.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında aqrar sahənin mövcud vəziyyəti, son illərdə görülən işlər, qarşıda duran vəzifələr və prioritetlərə toxunub. Dövlət Proqramının əsas məqsəd və hədəfləri barədə məlumat verən nazir qeyd edib ki, bu sənəd kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir suvarma sistemlərinin genişləndirilməsi, emal sənayesinin inkişafı, ixrac potensialının gücləndirilməsi və özəl investisiyaların təşviqinə xidmət edir. Nazir əlavə edib ki, diferensial subsidiya siyasəti, müasir suvarma texnologiyalarının tətbiqi və yeni bağçılıq layihələri regionda kənd təsərrüfatının daha sürətli inkişafı üçün əlverişli imkanlar yaradır.

Tədbirin davamında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov çıxış edərək "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın vizual təqdimatını keçirib. Diqqətə çatdırılıb ki, Dövlət Proqramında fundamental və dəstəkləyici tədbirlər əks olunur.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müavini İlham Bayramov su təsərrüfatı infrastrukturunun rəqəmsallaşdırılması, müasir suvarma texnologiyalarının tətbiqi və fermerlərin maarifləndirilməsi istiqamətində görülən işləri diqqətə çatdırıb. Bildirilib ki, son illər ölkə üzrə, o cümlədən Naxçıvan Muxtar Respublikasında suvarma infrastrukturunun yenilənməsi, yeni su mənbələrinin yaradılması və müasir suvarma sistemlərinin tətbiqi istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir ki, bu da minlərlə hektar əkin sahəsinin dayanıqlı su təminatının gücləndirilməsinə və yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsinə imkan verəcək.

Naxçıvanın kənd təsərrüfatı naziri Rafail Quliyev çıxışında bildirib ki, muxtar respublika məhdud torpaq və su resurslarına malik olmaqla yanaşı, özünəməxsus iqlim şəraiti, əlverişli coğrafi mövqeyi, zəngin kənd təsərrüfatı ənənələri və yüksək əmək potensialı ilə fərqlənir. Naxçıvanın dağlıq və aran ərazilərinin mövcudluğu burada müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafına imkan yaradır. Taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, yemçilik, heyvandarlıq və digər istiqamətlər üzrə mövcud potensialın daha səmərəli istifadəsi Dövlət Proqramının əsas hədəfləri ilə üst-üstə düşür.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov qeyd edib ki, rayon kənd təsərrüfatı məhsullarının istehsalında Naxçıvan Muxtar Respublikasının aparıcı bölgələrindən biri olmaqla bitkiçilik, heyvandarlıq və emal sahələrində mühüm göstəricilərə malikdir. Vurğulanıb ki, rayonda mövcud istehsal ənənələri və əlverişli torpaq-iqlim şəraiti aqrar sahənin daha da genişləndirilməsi üçün mühüm imkanlar yaradır.

Müzakirələrdə iştirak edən fermerlər və sahibkarlar kənd təsərrüfatının inkişafına göstərilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirərək bu sahəyə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Bildirilib ki, Dövlət Proqramında nəzərdə tutulan tədbirlər aqrar istehsalın genişləndirilməsi, emal sənayesinin inkişafı, investisiya imkanlarının artırılması və yeni biznes təşəbbüslərinin təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müşavirənin yekununda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov diqqətə çatdırıb ki, Dövlət Proqramında müəyyən edilmiş hədəflərə nail olunması məqsədilə aidiyyəti dövlət qurumları, yerli icra hakimiyyəti orqanları və digər məsul tərəflər tərəfindən zəruri tədbirlər həyata keçirilməlidir. Bildirilib ki, rayonların aqrar potensialı, torpaq və su resursları nəzərə alınmaqla fəaliyyət planları hazırlanmalı, dövlət dəstəyi mexanizmlərinin və investisiya imkanlarının təbliği gücləndirilməlidir. Həmçinin aidiyyəti qurumlara Dövlət Proqramının icrası üzrə fəaliyyətin əlaqələndirilməsi, nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin mütəmadi monitorinqi və yaranan problemlərin operativ həlli istiqamətində tapşırıqlar verilib.

# Naxçıvanda III karyera sərgisi təşkil olunub





Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə “Karyera sərgisi 2026” keçirilib.

Tədbirin açılışında çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən birinin məşğulluğun artırılması və insan kapitalının inkişaf etdirilməsi olduğunu bildirib. Samir Seyidəhmədli dövlət, ali təhsil müəssisələri və özəl sektor arasında əməkdaşlığın gənclərin məşğulluğunun təmin edilməsində mühüm rol oynadığını vurğulayıb. Əmək bazarında şəffaf işə qəbul mexanizmlərinin formalaşdırılmasının, namizədlərin yalnız diplomla deyil, peşəkar bacarıqlar, sertifikatlar, könüllü fəaliyyət və fərdi təşəbbüslər əsasında qiymətləndirilməsinin vacibliyini diqqətə çatdırıb.





Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın muxtar respublikanın davamlı inkişafını təmin edən mühüm strateji sənəd olduğunu bildirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində muxtar respublikada yeni iş yerlərinin yaradıldığı, sahibkarlığın inkişafının dəstəkləndiyini və vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atıldığını vurğulayıb. Baş nazir qeyd edib ki, muxtar respublikada işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin olunması məqsədilə əmək yarmarkaları təşkil edilir, peşə hazırlığı kursları keçirilir, özünüməşğulluq proqramları icra olunur və peşəyönümlü xidmətlər göstərilir.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında universitetlə əmək bazarı arasında əlaqələrin daha da gücləndirilməsinin vacibliyini bildirib. Qeyd edib ki, Naxçıvan Dövlət Universiteti Naxçıvanda ən geniş işəgötürən müəssisə olmaqla yanaşı, yüksəkixtisaslı kadr hazırlığında da mühüm rol oynayır. Rektor vurğulayıb ki, universitetdə tələbələrin praktiki bacarıqlarının inkişaf etdirilməsi, onların peşəkar formalaşmasına dəstək verilməsi və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı istiqamətində ardıcıl iş aparılır.

Elbrus İsayev əvvəlki illərdə təşkil olunan karyera sərgilərinin nəticələrinə də toxunaraq bildirib ki, əvvəlki iki karyera sərgisində 200-ə yaxın namizəd işlə təmin olunub.



Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə bildirib ki, Prezident İlham Əliyevin aqrar sektorun inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və müasir kənd təsərrüfatının formalaşdırılması ilə bağlı verdiyi tapşırıqlar bu sahədə yüksəkixtisaslı mütəxəssislərə olan tələbatı daha da artırır. Nazir vurğulayıb ki, bu gün qarşımızda duran əsas vəzifələrdən biri də həmin çağırışlara cavab verə biləcək peşəkar insan kapitalının hazırlanması və gənclərin əmək bazarına uğurlu inteqrasiyasının təmin edilməsidir.

“Ləzzət Qida Sənaye” MMC-nin direktoru Teymur Rzayev çıxışında müasir əmək bazarında baş verən sürətli dəyişikliklərdən və iş dünyasının yeni tələblərindən danışıb. Qeyd edib ki, gələcəyin əmək bazarında uğur qazanmaq üçün gənclər yalnız nəzəri biliklərlə kifayətlənməməli, rəqəmsal savadlılıq, süni intellekt alətləri ilə işləmək bacarığı, kommunikasiya, liderlik, analitik düşüncə və təşəbbüskarlıq kimi bacarıqların inkişaf etdirməlidirlər.

İstanbul Cərrahpaşa Universiteti və Naxçıvan Dövlət Universitetinin professoru, İstanbul Cərrahpaşa Universiteti – Karyera Mərkəzinin müdiri Aysel Ersoy çıxışında biliklərin sürətlə yeniləndiyi müasir dövrdə ömürboyu öyrənmənin vacibliyini vurğulayıb. Professor qeyd edib ki, gələcəyin uğurlu mütəxəssisləri dəyişikliklərə uyğunlaşan, öz üzərində daim çalışan və peşəkar inkişafını fasiləsiz davam etdirən şəxslər olacaq.

Sərgi çərçivəsində, ümumilikdə, 2346 vakansiya təqdim olunub. Bunlardan 2066-sı dövlət sektoruna, 280-i isə özəl sektora aiddir. Tədbir iştirakçılar üçün əmək bazarının mövcud imkanları ilə tanış olmaq, işəgötürənlərlə birbaşa əlaqələr qurmaq və gələcək karyeralarını planlaşdırmaq baxımından mühüm platforma rolunu oynayıb.

## Naxçıvanda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş beynəlxalq reytinqli şahmat turnirinin qalibləri mükafatlandırılıb



İyunun 22-də Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Şahmat Federasiyasının təşəbbüsü, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və “Naxış-Nərgiz” Məhdud Məsuliyyətli Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq reytinqli şahmat turnirinin qalibləri mükafatlandırılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Bəxtiyar Məmmədov iştirak edib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Baş hakim Urfan Sevdimalıyev yarışın gedişatı barədə ətraflı məlumat verib.

Sonra turnirin baş hakimi Urfan Sevdimalıyev, hakimlər Əli Hüseynzadə və Ramilə Hüseynova təltif olunublar. Ardınca qaliblər mükafatlandırılıb.

I yerin sahibi Mirsaleh Seyidov, II yerin sahibi Yasin Əzimov və III yerin sahibi Nəsrin Babayeva təltif olunub.

Yaş kateqoriyaları üzrə də qaliblər mükafatlandırılıb. Ən kiçik şahmatçılar Tuncay Behbudov və Dəniz Abbasbəyli, 8 yaş kateqoriyası üzrə Ayla Cəfərli, 10 yaş üzrə Məhəmməd Rza, 12 yaş üzrə Rail Qasımlı, 14 yaş üzrə Lətif Muradlı, veteranlar arasında Adil Sevdimalıyev, qadınlar arasında isə Nigar Qənbərli fərqləniblər.

Mükafatları Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Bəxtiyar Məmmədov, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və “Naxış-Nərgiz” MMC-nin icraçı direktoru Nüsrət Mehdiyev təqdim ediblər.

Sonda xatirə fotosu çəkdirilib.

## Ali Məclisin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib



İyunun 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinin ikinci oxunuşda olan “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsi olduğunu bildirib.

İclasda gündəlikdə duran məsələlərlə bağlı komitə sədri məlumat verdikdən sonra qanun layihələri Ali Məclisin plenar iclasında müzakirəsinə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının və qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin iyul ayında şəhər və rayonlarda keçiriləcək vətəndaş qəbullarının cədvəli

| S/n | Qəbulu keçirilən mərkəzi icra hakimiyyəti orqanının rəhbəri | Qəbulun keçiriləcəyi şəhər, rayon | Qəbulun keçiriləcəyi gün |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri** Fərid Bağırzadə | Sədərək | 02.07.2026 |
| 2. | **Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Məcid Seyidov | Şərur | 02.07.2026 |
| 3. | **“Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, sədr vəzifəsini müvəqqəti icra edən** Nihad Qurbanov | Şərur | 08.07.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri** Xanlar Mustafayev | Şahbuz | 09.07.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Ramilə Seyidova | Babək | 15.07.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Hüseyn Səfərov | Kəngərli | 22.07.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** İlqar Sadıqov | Şahbuz | 22.07.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri** Şahin Mirzəyev | Culfa | 23.07.2026 |
| 9. | **Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Azər Məmmədrəhimov | Ordubad | 30.07.2026 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat $11^{00}$-da başlayır.**

# Dövlət Proqramının əsas məqsədi daha az resurs sərf etməklə daha çox və keyfiyyətli məhsul əldə etməkdir




"Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı müşavirə keçirilib. Müşavirədən irəli gələn vəzifələrin icrası ilə əlaqədar Naxçıvanda keçirilən tədbirdə özəl sektor nümayəndələrinə Dövlət Proqramı barədə ətraflı məlumat verilib, sahibkarlarla geniş müzakirələr aparılıb, onların təklif və sualları dinlənilərək cavablandırılıb. Müşavirədə proqramın Naxçıvan Muxtar Respublikasında tətbiqi imkanları, prioritet istiqamətləri və gözlənilən nəticələr ətrafında fikir mübadiləsi aparılıb".

Bu sözləri Naxçıvanda jurnalistlərə müsahibəsində kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.

Nazir qeyd edib ki, fundamental tədbirlər kənd təsərrüfatı sahəsində birbaşa həyata keçiriləcək fəaliyyətləri, dəstəkləyici tədbirlər isə qanunvericilik təşəbbüslərini, institusional islahatları və rəqəmsallaşma istiqamətində görüləcək işləri əhatə edir: "Keçirilən görüşdə Naxçıvanda fundamental tədbirlərin icrası, özəl sektorun bu prosesdə iştirakı və dövlət tərəfindən göstəriləcək dəstək mexanizmləri barədə məlumat verildi. Xüsusilə heyvandarlıq, bitkiçilik və müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsinin əhəmiyyəti vurğulandı".

Məcnun Məmmədov bildirib ki, cari ilin fevral ayında "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib: "Bu çərçivədə ərazilərin su ilə təminatının yaxşılaşdırılması, müasir suvarma sistemlərinin qurulması, su anbarlarının və digər infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur. Müşavirədə, həmçinin Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının Naxçıvanın iqtisadi inkişafına verəcəyi töhfələrdən danışıldı. Bildirildi ki, Dövlət Proqramının icrası istehsal və emal imkanlarının genişlənməsinə, eyni zamanda məhsulların yeni ixrac bazarlarına çıxarılmasına şərait yaradacaq".

Məhsuldarlıqla bağlı proqnozlara toxunan kənd təsərrüfatı naziri qeyd edib ki, Dövlət Proqramının əsas hədəflərindən biri müasir suvarma sistemlərinin tətbiqi və qabaqcıl aqrotexniki üsulların genişləndirilməsi hesabına məhsuldarlığın artırılmasıdır. Bu istiqamətdə qarşıya qoyulan məqsədlərdən biri suvarılan ərazilərdə buğda üzrə orta məhsuldarlığın hər hektardan 5 tona çatdırılmasıdır. Pambıqçılıqda da orta məhsuldarlığın ölkə üzrə 5 tona yüksəldilməsi nəzərdə tutulur.

"Müasir suvarma və aqrotexniki qulluq tədbirlərinin tətbiqi digər kənd təsərrüfatı məhsulları üzrə də məhsuldarlığın artmasına imkan verəcək. Dövlət Proqramının əsas məqsədi isə daha az resurs sərf etməklə hər hektardan daha çox və keyfiyyətli məhsul əldə olunmasına nail olmaqdır", – deyə Məcnun Məmmədov əlavə edib.

# Dövlət Proqramı Naxçıvanın da aqrar inkişafında yeni mərhələnin əsasını qoyur

İyunun 22-də Naxçıvan iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsinə həsr olunmuş regional müşavirə keçirilib. Müşavirənin keçirilməsi muxtar respublikanın gələcək inkişaf prioritetləri baxımından xüsusi əhəmiyyət daşıyır. Qarşıdakı illərdə aqrar sahədə həyata keçiriləcək tədbirlərin, hədəflərin və gözlənilən nəticələrin müzakirəsi bir daha göstərdi ki, kənd təsərrüfatının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq qalır.

Naxçıvan Muxtar Respublikası tarixən kənd təsərrüfatı ənənələri ilə seçilən bölgələrdən biridir. Burada əlverişli iqlim şəraiti, münbit torpaq ehtiyatları, geniş otlaq və örüş sahələri, müxtəlif yüksəklik qurşaqları, eləcə də mövcud su resursları kənd təsərrüfatının müxtəlif istiqamətlərinin inkişafı üçün zəngin potensial formalaşdırıb. Taxılçılıq, meyvəçilik, tərəvəzçilik, üzümçülük, heyvandarlıq və quşçuluq kimi sahələr uzun illərdir, muxtar respublikanın iqtisadi həyatında mühüm yer tutur.

Lakin müasir dövrdə qlobal iqlim dəyişiklikləri, su ehtiyatlarından səmərəli istifadə, artan ərzaq tələbatı və beynəlxalq bazarlardakı rəqabət aqrar sektor qarşısında yeni çağırışlar formalaşdırır. Məhz bu baxımdan qəbul edilən Dövlət Proqramı Naxçıvan üçün də yeni inkişaf mərhələsinin əsasını qoyan strateji sənəd kimi qiymətləndirilə bilər.



Proqramın əsas hədəflərindən biri kənd təsərrüfatında məhsuldarlığın artırılması və istehsalın müasir tələblərə uyğun təşkili ilə bağlıdır. Bu istiqamətdə innovativ texnologiyaların tətbiqi, müasir suvarma sistemlərinin genişləndirilməsi, torpaq ehtiyatlarından səmərəli istifadə və fermerlərin yeni texnologiyalara çıxış imkanlarının artırılması nəzərdə tutulur. Bu tədbirlər həm istehsal həcmlərinin artırılmasına, həm də məhsulun maya dəyərinin azalmasına imkan verəcək.

Dövlət Proqramının Naxçıvan



üçün ən mühüm tərəflərindən biri ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsidir. Son illərdə muxtar respublikanın bir sıra kənd təsərrüfatı məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlsə də, yeni proqram bu istiqamətdə daha dayanıqlı nəticələrin əldə olunmasını hədəfləyir. Yerli istehsalın artırılması idxaldan asılılığın azalmasına, daxili bazarın daha keyfiyyətli və münasib qiymətli məhsullarla təmin edilməsinə şərait yaradacaq.

Proqram kənd yerlərində məşğulluğun artırılması baxımından da böyük əhəmiyyət daşıyır. Aqrar sektorda yeni layihələrin həyata keçirilməsi, emal müəssisələrinin yaradılması, kooperasiya münasibətlərinin inkişaf etdirilməsi və logistika infrastrukturunun gücləndirilməsi kənd əhalisi üçün yeni iş yerlərinin açılmasına səbəb olacaq. Bu isə əhalinin gəlirlərinin artmasına, sosial rifahın yaxşılaşmasına və kənd yaşayış məntəqələrinin iqtisadi fəallığının yüksəlməsinə müsbət təsir göstərəcək.

Naxçıvan üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də su ehtiyatlarından səmərəli istifadədir. Muxtar respublikanın iqlim xüsusiyyətləri suya qənaət edən texnologiyaların tətbiqini zəruri edir. Dövlət Proqramında müasir suvarma sistemlərinin genişləndirilməsi, su təminatının yaxşılaşdırılması və su resurslarının daha səmərəli idarə olunması kimi məsələlərin öz əksini tapması gələcəkdə kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcək.

Proqramda balıqçılıq və akvakultura sahələrinin inkişafına xüsusi yer ayrılması da Naxçıvan üçün yeni imkanlar açır. Muxtar respublikadakı su anbarları və mövcud su hövzələri bu istiqamətdə yeni is-



tehsal sahələrinin yaradılması üçün əlverişli potensiala malikdir. Həmin potensialdan istifadə həm ərzaq təminatının şaxələndirilməsinə, həm də sahibkarlığın inkişafına əlavə stimul verə bilər.

Eyni zamanda Dövlət Proqramı kənd təsərrüfatı məhsullarının emalı və əlavə dəyər yaradan istehsal zəncirinin formalaşdırılması baxımından da xüsusi əhəmiyyət daşıyır. Bu gün dünyada aqrar inkişaf yalnız məhsul istehsalı ilə deyil, həmin məhsulların emalı, qablaşdırılması, markalaşdırılması və bazarlara çıxarılması ilə ölçülür. Naxçıvanda emal sənayesinin inkişafı fermerlərin gəlirlərinin artmasına, istehsal olunan məhsulların rəqabətqabiliyyətinin yüksəlməsinə və ixrac potensialının genişlənməsinə xidmət edəcək.

Muxtar respublikanın strateji coğrafi mövqeyi də bu baxımdan mühüm üstünlükdür. Azərbaycan ilə Türkiyə arasında mühüm nəqliyyat dəhlizində yerləşən Naxçıvan gələcəkdə kənd təsərrüfatı və emal məhsullarının xarici bazarlara çıxarılması üçün əhəmiyyətli logistik imkanlara malikdir. Dövlət Proqramının uğurlu icrası bu imkanlardan daha səmərəli istifadə olunmasına və Naxçıvanın regional aqrar istehsal və emal mərkəzlərindən birinə çevrilməsinə şərait yarada bilər.

İyunun 22-də keçirilən regional müşavirə bir daha göstərdi ki, 2026-2030-cu illəri əhatə edən Dövlət Proqramı təkcə kənd təsərrüfatının inkişafına yönəlmiş sənəd deyil. Bu proqram həm də kənd əhalisinin rifahının yüksəldilməsinə, yeni iş yerlərinin yaradılmasına, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, ixrac imkanlarının genişləndirilməsinə xidmət edəcək. Qarşıdakı illərdə proqram çərçivəsində müəyyən edilən tədbirlərin ardıcıl və məqsədyönlü şəkildə icrası muxtar respublikanın aqrar potensialının daha da güclənməsinə və regionun ölkənin aparıcı kənd təsərrüfatı mərkəzlərindən birinə çevrilməsinə mühüm töhfə verəcək.

**Anar TAĞIYEV**
***Naxçıvan televiziyasının baş redaktoru***



# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix, saat və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 07.07.2026, saat $10^{00}$, Sədərək rayonu, Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədli Abbas Paşa oğlu, 060-570-70-60 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 13.07.2026, saat $11^{00}$, Sədərək rayonu, Dəmirçi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 03.07.2026, saat $16^{00}$, Şərur rayonu, Maxta kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 06.07.2026, saat $10^{00}$, Şərur rayonu, Muğanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 5. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 07.07.2026, saat $15^{00}$, Şərur rayonu, Çərçiboğan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 6. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 09.07.2026, saat $10^{30}$, Şərur rayonu, Kosacan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 7. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 09.07.2026, saat $15^{00}$, Şərur rayonu, Zeyvə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 8. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 03.07.2026, saat $11^{00}$, Şərur rayonu, Mahmudkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 9. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 06.07.2026, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılov Tural Səid oğlu, 060-206-60-60 |
| 10. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 03.07.2026, saat $15^{00}$, Şərur rayonu, Aşağı Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14 |
| 11. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 02.07.2026, saat $11^{00}$, Şərur rayonu, Yeni Havuş və Xətai kənd sakinləri, Yeni Havuş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 12. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 14.07.2026, saat $15^{00}$, Şərur rayonu, Danyeri kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 13. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 10.07.2026, saat $10^{30}$, Kəngərli rayonu, Yurdçu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Cəlilov İbrahim Elman oğlu, 050-707-20-12 |
| 14. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 01.07.2026, saat $11^{00}$, Kəngərli rayonu, Şahtaxtı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Şənay Bəhlul qızı, 055-503-08-25 |
| 15. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 02.07.2026, saat $12^{00}$, Kəngərli rayonu, Təzəkənd və Xıncab kənd sakinləri, Xıncab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 16. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 03.07.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Abutalıbov Mədət Arif oğlu, 050-740-20-40 |
| 17. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 08.07.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 18. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 02.07.2026, saat $14^{30}$, Babək Rayon İcra Hakimiyyətinin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 19. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 02.07.2026, saat $11^{00}$, Babək rayonu, Yarımca kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 20. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 08.07.2026, saat $15^{00}$, Babək rayonu, Məmmədrza Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 21. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 08.07.2026, saat $14^{00}$, Babək rayonu, Gərməçataq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 22. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 03.07.2026, saat $12^{00}$, Babək rayonu, Cəhri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyn qızı, 051-533-71-71 |
| 23. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 03.07.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 24. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 01.07.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 25. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 06.07.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 6 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 26. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 02.07.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 27. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 03.07.2026, saat $17^{00}$, Naxçıvan şəhəri, İbrahim Əbilov küçəsi, səyyar qəbul | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 28. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 02.07.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 3 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 29. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 02.07.2026, saat $14^{00}$, Naxçıvan şəhəri, 4 saylı uşaq bağçasının binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 30. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 03.07.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 31. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 06.07.2026, saat $19^{00}$, Naxçıvan şəhəri, Hərbi şəhərcik, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 32. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 06.07.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 1 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 33. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 03.07.2026, saat $11^{00}$, Şahbuz rayonu, Mahmudoba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 34. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 01.07.2026, saat $11^{00}$, Şahbuz rayonu, Kolanı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 35. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 03.07.2026, saat $15^{00}$, Şahbuz rayonu, Şada kənd, $16^{00}$ Badamlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 060-543-24-29 |
| 36. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 02.07.2026, saat $10^{00}$, Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 055-592-42-18, 077-569-43-65 |
| 37. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 01.07.2026, saat $11^{00}$, Culfa rayonu, Gülüstan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85 |
| 38. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 02.07.2026, saat $11^{00}$, Culfa rayonu, Bənəniyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 39. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 02.07.2026, saat $10^{00}$, Culfa rayonu, Qazançı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 40. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 16.07.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>30.07.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 41. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 09.07.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>23.07.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 02.07.2026, saat $10^{30}$, Ordubad rayonu, Xanağa kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 43. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 01.07.2026, saat $11^{00}$, Ordubad rayonu, Dəstə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 44. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 02.07.2026, saat $12^{00}$, Ordubad rayonu, Parağa kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əlizadə Polad Pərviz oğlu, 060-441-26-29 |





# Naxçıvanda tekstil sənayesi yenidən dirçəlir

Naxçıvan şəhərində fəaliyyətə başlayan yeni tikiş fabrikinin qapısından içəri daxil olan kimi insanı tamam başqa bir mühit qarşılayır. Burada hər şey hərəkətdədir. Bir tərəfdə parçalar diqqətlə kəsilir, digər tərəfdə tikiş maşınlarının fasiləsiz səsi eşidilir. Əməkdaşlar öz iş yerlərində böyük məsuliyyətlə çalışır. Hər kəs eyni məqsəd uğrunda birləşib keyfiyyətli məhsul istehsal etmək və Naxçıvanda yerli istehsalın inkişafına töhfə vermək üçün səy göstərir.

"Naxçıvan Tikiş" ASC və "Pozitif" MMC-nin birgə əməkdaşlığı nəticəsində fəaliyyətə başlayan fabrik müasir texnologiyalarla təchiz olunub. Türkiyə istehsalı olan avadanlıqların quraşdırıldığı müəssisədə istehsal prosesinin hər mərhələsi dəqiqliklə həyata keçirilir. Kəsim bölməsindən başlayan yol tikiş sahəsinə, oradan keyfiyyət yoxlanışına və qablaşdırma mərhələsinə qədər davam edir.

Fabriki gəzərkən əməkdaşların işə necə həvəslə yanaşdıqları diqqətdən yayınmır. Tikiş maşınlarının ritmik səsi fonunda hər kəs öz vəzifəsini böyük məsuliyyətlə yerinə yetirir. Bir neçə dəqiqə əvvəl, sadəcə, parça olan material qısa müddət sonra səliqəli şəkildə hazırlanmış geyimə çevrilir.

Digər maraqlı məqam isə müəssisənin nəzdində fəaliyyət göstərən mağazadır. Bura istehsal olunan məhsulların nümayiş olunduğu xüsusi məkanlardan biridir. Rəflərdə düzülən müxtəlif geyimlər fabrikin imkanlarını əyani şəkildə göstərir. Hazırlanan məhsullara baxdıqca onların arxasında dayanan zəhməti görməmək mümkün deyil.





İnzibati direktor Meydan Həsənovun sözlərinə görə, fabrikin tarixi ötən əsrin ortalarına gedib çıxır. 1959-cu ildən fəaliyyət göstərən müəssisə uzun illər ərzində qazandığı təcrübəni bu gün müasir istehsal texnologiyaları ilə birləşdirərək yeni inkişaf mərhələsinə qədəm qoyub. Fabrik yalnız istehsal müəssisəsi kimi deyil, həm də məşğulluğun artırılmasına xidmət edən mühüm layihə kimi qiymətləndirilir.

Hazırda müəssisədə 60 nəfər çalışır. Rəhbərlik yaxın gələcəkdə işçi sayını 150 nəfərə çatdırmağı planlaşdırır.

Müəssisənin gələcək hədəfləri də ən az bugünkü fəaliyyəti qədər böyükdür. Marketinq departamentinin direktoru Xanım Tarverdiyeva bildirir ki, yaxın illərdə fabrikdə cins geyimlərinin istehsalına başlanılması nəzərdə tutulur. Bu məqsədlə yeni istehsal sahələri yaradılacaq, müasir texnologiyalar tətbiq olunacaq. Beləliklə, parçalar yalnız tikilməyəcək, onların yuyulması, qurudulması və emalı da burada həyata keçiriləcək. Hər yeni layihə yeni iş yerləri, yeni imkanlar və yüzlərlə insanın gələcəyə daha böyük ümidlə baxması mənasına gəlir.

Tikiş maşınının arxasında əyləşən Aysel Orucova ilə söhbətimizə davam etdik. O bu sahədə uzun illərin təcrübəsinə malikdir. Müasir və avtomatik avadanlıqların işlərini daha da asanlaşdırdığını deyən həmsöhbətimiz peşəsinə olan sevgisini gizlətmir.

Aysel xanımın sözlərində peşəsinə bağlılıq, baxışlarında isə gələcəyə inam hiss olunur. Onun kimi onlarla əməkdaş üçün bu fabrik, sadəcə, iş yeri deyil, həm də arzularını reallaşdırdıqları, zəhmətlərinin bəhrəsini gördükləri bir məkandır. Fabrikin istehsal xəttində hər gün onlarla məhsul hazırlanır, amma burada yaranan ən qiymətli dəyər insanların öz əməyinə və gələcəyinə olan inamıdır.

Fabrikdən ayrılarkən istehsal prosesi əvvəlki ritmi ilə davam edirdi. Belə müəssisələrin fəaliyyətə başlaması isə təkcə yerli istehsalın inkişafına deyil, həm də yeni iş yerlərinin yaradılmasına və regionun iqtisadi potensialının güclənməsinə mühüm töhfə verir.

✍ **Zəhra VƏLİYEVA**





# Əqrəblərlə yaşayanlar: Naxçıvanda qeyri-adi ferma həyatı



Divarlarından minlərlə zəhərli quyruğun boylandığı, hər anında ölümcül səssizlik asılan bir məkandayıq. Hər tərəfə xüsusi şüşə və plastik qablar düzülüb, içərisində isə hərəkətsiz dayanan, lakin hər an hücuma hazır olan yüzlərlə əqrəb var. Bura Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Azərbaycanın yeganə əqrəb fermasıdır. Ferma adi bir təsərrüfat deyil; burada səhv etmək şansınız yoxdur. Kənardan sadə bir heyvandarlıq obyekti kimi görünsə də, daxildə tibbi biologiyanın ən son standartları tətbiq olunan məkandır bura.

Əqrəb ferması anlayışı ilk baxışda paradoksal görünə bilər. Ənənəvi heyvandarlıq sənayesi insanı süd, ət və ya digər məhsullarla təmin etmək üçün yaradıldığı halda əqrəb fermasının yeganə məqsədi mikrolitrlərlə ölçülən təhlükəli bir mayeni – zəhəri əldə etməkdir. Ümumiyyətlə, bəşəriyyət əsrlərboyu təbiəti 2 qütbə ayırıb: faydalı və zərərli olanlar. Əqrəblər həmişə bu ikinci qütbün, daha dəqiq desək, qorxu və qaçışın simvolu olublar. Lakin müasir elm və biotexnologiyanın inkişafı bu qədim "ənənəni", deyimi kökündən dəyişib. Bu gün insanlıq qorxduğu canlıları məhv etmək əvəzinə, onların zəhərini gələcəyin şəfasına çevirmək üçün xüsusi fermalar qururlar. Naxçıvanda fəaliyyət göstərən əqrəb ferması da məhz bu təfəkkür inqilabının ən bariz nümunəsidir.

Qorxulu kabusların deyil, tibb elminin ən maraqlı sahələrindən birinin – əqrəb fermasının qapılarını açırıq. Fermaya daxil olarkən bizi kənd təsərrüfatı qoxusu deyil, kəskin bir steril mühit qarşılayır. Elə qapıda mütəxəssis Bayram Babayevlə söhbətləşirik. Deyir ki, fermadakı əqrəblər idxal olunmayıb: "Hamısı Naxçıvanın yerli təbiətindən, xüsusi dağlıq və quraq ərazilərindən toplanıb. Onlar yerli iqlimə tam uyğundur, lakin qapalı mühitdə müəyyən qədər kaprizləri olur. Ümumiyyətlə, əqrəblər isti və qaranlıq mühitləri sevirlər. Fermada ilin fəslindən asılı olmayaraq, temperatur sabit şəkildə, yəni 26 dərəcə səviyyəsində saxlanılır. İşıqlandırma minimuma endirilib, çünki əqrəblər gecə heyvanlarıdır və kəskin işıq onlarda güclü stres yaradır. Stres isə birbaşa zəhərin keyfiyyətini aşağı salır. Bu da bəzən heyvanın ölümünə səbəb ola bilər".

Mütəxəssislə söhbətimiz zamanı öyrənirik ki, bu canlılar olduqca "tələbkar"dırlar. Onların bəslənməsi fermanın ən maraqlı və zəhmət tələb edən hissəsidir. Əqrəblər "ölü qida" qəbul etmirlər. Bu səbəbdən fermada bir bölmə var ki, onlar üçün xüsusi olaraq burada un qurdları yetişdirilir: "Əqrəblər təkliyi sevir, onları eyni qaba qoysanız, birbirlərini yeyə bilərlər. Ona görə də hər birinin, belə deyək, öz fərdi "mənzili" var. Bala əqrəblər isə inkişafları üçün təbiətə buraxılır".





Əqrəb fermalarındakı iş prosesi insanın təbiətlə olan münasibətindəki səbri və həssaslığı da simvolizə edir. Qaranlıq otaqlarda, ciddi temperatur nəzarəti altında saxlanılan canlıların hər birinə fərdi yanaşma tələb olunur. Mikroskopik dəqiqliklə həyata keçirilən sağım prosesi həm işçinin, həm də canlının həyatını riskə atmayacaq bir peşəkarlıqla idarə olunur: "Fermada zəhər istehsalı fasiləsiz zəncirvari prosesdir. Hər bir əqrəb qrupundan 15-17 gündən bir zəhər sağımı həyata keçirilir. Bu müddət əqrəbin zəhər vəzilərinin yenidən tam dolması və zəhərin tibbi konsentrasiyasını bərpa etməsi üçün mütləqdir. Bir əqrəbdən bir dəfəyə cəmi 0,1-0,5 milliqram zəhər almaq mümkündür. Yəni bir qram zəhər toplamaq üçün 350-400 əqrəbi sağmaq lazımdır".

Reportajımızın ən gərgin anı zəhər sağım prosesidir. Xüsusi qoruyucu geyimdə olan mütəxəssislər sağılacaq əqrəbləri ehtiyatla götürürlər. Proses addım-addım belə icra olunur: Əqrəblər xüsusi alətlə quyruq hissəsindən tutulur. Zəhərin ifraz olunması üçün çox kiçikölçülü, heyvana zərər verməyən zəif elektrik cərəyanı vasitəsilə zəhər vəzlərinin daralması təmin edilir. Bu zaman əqrəb quyruğundakı iynədən şüşə qaba şəffaf zəhər damcıladır. Maye zəhər dərhal laboratoriya şəraitində dondurulur və zəhər toz (kristal) halına gətirilir. Bu vəziyyətdə zəhər öz zülal strukturunu illərlə qoruya bilir. Proses tamamilə əl əməyinə əsaslanır və kiçik bir diqqətsizlik işçinin sancılması ilə nəticələnə bilər. Sağım prosesindən sonra əqrəblər yenidən qidalandırılır və bədənlərində zəhərin yenidən bərpa olunması üçün bir neçə həftə dincəlməyə buraxılırlar.

Müasir tibb kəşf edib ki, əqrəb zəhərinin tərkibindəki peptidlər insan bədənindəki sağlam hüceyrələrə toxunmadan, yalnız xərçəng hüceyrələrini hədəf almaq gücünə malikdir. Bundan əlavə, həmin zəhərdən güclü ağrıkəsicilərin və immun sistemini tənzimləyən preparatların istehsalında istifadə olunur.

Fermadan ayrılarkən anlayırsan ki, bəşəriyyət üçün vahiməli, təhlükəli görünən bu canlılar, əslində, minlərlə insanın həyatını xilas edən bir şəfa mənbəyidir. Sadəcə, doğru idarə olunduqda qorxunu elmə və sağlamlığa çevirmək mümkündür.

✍ **Ceyhun MƏMMƏDOV**

# Sarsılmaz inamın təntənəsi və ya qayıdışa addım-addım

## III konqres-festivaldan geriyə qalanlar

*Yaxın keçmişdə qazanılan tarixi zəfərimiz, "Böyük Qayıdış" proqramı ilə yenidən can tapan Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı layihələr bütün dünyaya göstərdi ki, Azərbaycan sülhün, quruculuğun, inkişafın tərəfindədir. Torpaqları uğrunda canını fəda etməyə, lazım gələrsə, son damla qanına qədər savaşmağa hazırdır. 44 günlük Vətən müharibəsi həm də haqqın, ədalətin təntənəsi idi. Bəzən tarixi ədalətin bərpası zaman alsa da, insanların Vətəninə, elinə, obasına tükənməyən sevgisi sonda qalib gəlir. Hər zaman nitqlərində qərbi azərbaycanlıların bir gün öz doğma torpaqlarına qovuşacaqlarını inamla ifadə edən Ulu Öndərin 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində məcburi köçkünlər üçün inşa edilən məhəllənin açılışındakı nitqini çoxları xatırlayır: "Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm".*



Ruhiyyə RƏSULOVA



### Sülh və sabitlik naminə

Baş verən mühüm tarixi hadisələr, beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan "Qərbi Azərbaycana qayıdış" konsepsiyasının qəbul olunması, bu istiqamətdə güclü təşkilatlanma, yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılan məqsədyönlü addımlar qərbi azərbaycanlıları öz əzəli ata-baba yurdlarına addım-addım yaxınlaşdırır. İdeya müəllifi Prezident cənab İlham Əliyev olan bu konsepsiyanın işığında mühüm tədbirlər həyata keçirilir. Əsas məramı indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların öz yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etməkdən ibarət olan "Qərbi Azərbaycana qayıdış" konsepsiyasından irəli gələn vəzifələrin həlli istiqamətində sistemli şəkildə görülən işlər qayıdışa inamı daha da gücləndirir. Qərbi azərbaycanlılar öz torpaqlarına silahla, topla, atəş səsləri ilə deyil, gül-çiçəklə, musiqi sədaları ilə qayıdacaqlar.

### Tarix və dəyişməyən gerçəkliklər

Tarixin səhifələri dərindir və bu dərinlikdə erməni xisləti iç üzünü göstərib. Azərbaycanlılar öz doğma torpaqlarından, ata-baba yurdlarından didərgin düşüblər. Son 200 il ərzində tarixi torpaqlarımızda təkcə Azərbaycan xalqı deportasiya, soyqırımı və etnik təmizləmə siyasətinə məruz qalmayıb. Eyni zamanda xalqımıza məxsus maddi və mənəvi irs nümunələri də erməni vandalizmi nəticəsində dağıdılıb, saxtalaşdırılıb və mənimsənilib. Bir qismi isə dünya ictimaiyyətinə erməni mədəni irsi kimi təqdim edilməyə çalışılıb, yer adları dəyişdirilib. Tarixin izlərini silməyə cəhd göstərən ermənilər bir şeyi unudublar ki, dəyişməyən gerçəkliklər var, o tarixi gerçəklikləri bu gün də öz beynində, ruhunda daşıyan insanlar var.

Məlumdur ki, Naxçıvan ta keçmiş zamanlardan üzü bəri (əsasən də, 1905-ci ildən) Qərbi Azərbaycandan məcburi köç edənlərin, qaçqınların pənah, ümid yeri olub. Müxtəlif illərdə Naxçıvanda 1905-1906, 1918-1921, 1948-1953, eləcə də son mərhələ olaraq 1987-1991-ci illərdə Qərbi Azərbaycandan gələnlərin ya izləri, ya özləri hazırda yaşamaqdadır. Ordubadın Yuxarı Əylis kəndində 108 ildir, mövcud olan Qarabağ məhəlləsi, 1918-ci ildə Qoruqlar kəndinin məhz Zəngəzur qaçqınlarının məskunlaşması ilə yaranması, kənddə iki tarixi qəbiristanlıq, Şahbuzun kəndlərində 1948-53-cü illər deportasiyasına məruz qalmış insanların yaşaması, sadəcə, bir neçə tarixi faktlardır.









### Festivalın növbəti ünvanı – Ordubad

Naxçıvan öz yurdlarından didərgin düşən qərbi azərbaycanlılara qucaq açmaqla həm də zamanla soydaşlarımızın məruz qaldığı faciələrə şahidlik edib. Qərbi Azərbaycan ağrısını öz çiyinlərində daşıyıb. Bu gün isə tarixi gerçəkliklərin, illərlə qorunan irsin, yurd məhəbbətinin, qayıdışa inamın təntənəsinə çevrilən festivallar həm də dünyaya və qarşı tərəfə ünvanlanan mesajdır: qərbi azərbaycanlılar öz torpaqlarına sülhə qayıtmaq istəyirlər. 2023-2024-cü illərdə Naxçıvanda keçirilən "Qərbi Azərbaycana qayıdış" konqres-festivalları möhtəşəmliyi ilə yadda qalıb. Bu festivallar həm də əzəli torpaqlarımızın – Qərbi Azərbaycanın bir addımlığında birliyimizin göstəricisi, yurd yerlərinə qayıdışın addım səsləri idi. Festivalın növbəti ünvanı isə Zəngəzur dəhlizinin yaxınlığında, qədim Ordubad şəhəri idi.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalı öz əhəmiyyətliliyi ilə yadda qaldı. Natiqlər öz çıxışlarında elmi əsaslarla Qərbi Azərbaycan torpaqları, qayıdış konsepsiyasının mahiyyəti və festivalın da bu yöndə görülən tədbirlərin bir hissəsi olaraq əhəmiyyətindən bəhs etdilər. Keçirilən konqres-festival Qərbi Azərbaycan tarixi həqiqətləri ilə gənc nəsil arasında körpü saldı. Qərbi Azərbaycan mövzusuna həsr olunmuş panel müzakirələrində, kitab və müxtəlif layihələrin təqdimatlarında iştirak etmək üçün 200-ə yaxın xüsusi dəvətli qonaq festivala qatılıb.

Bədii hissə ilə davam edən tədbirdə şəhərin mərkəzindən ta Sərşəhər meydanınadək yolboyu nümayiş etdirilən sərgilər, rəqslər, ifalar festival iştirakçılarında xoş ovqat yaratdı. Ordubadın qədim küçələri bu dəfə Qərbi Azərbaycan əhvalına büründü. Sərgilərdə Qərbi Azərbaycana aid nadir sənət nümunələri, kitablar, fotolar, məişət əşyaları və milli kulinariya nümunələri iştirakçılara təqdim olundu. Bir tərəfdə xalqa toxuyan qadınlar, bir tərəfdə Qərbi Azərbaycan mətbəxindən – əyirdək, kömbə, İrəvan kətəsi, hədik, fəsəli, qırxbuğum kətəsi və təqdim olunan digər yeməklər, milli geyim, dekorativ-tətbiqi sənət nümunələri, folklor nümunələri əsl bayram abhavası yaratdı.

### "Həsrətin çəkdiyim ana Vətənim"

*Həsrətin çəkdiyim ana Vətənim*
*Beşiyim üstündə layla deyənim*
*Dünənim bu günüm həm gələcəyim*
*Canımsan, qanımsan, ey Dərələyəz*
*Ana torpağımsan, ey Dərələyəz.*

Sərşəhər meydanında mahnının səsi ərşə ucalıb. Ürəyi yurd həsrətli, gələcəyə nikbin baxışlı dərələyəzlilər qol qaldırıb oynayır. Daha sonra oyun havası yallı ilə əvəz olunur. Getdikcə yallının sıraları genişlənir, gənclər də qoşulur. Tarixi köklərə qayıdış ruhunda təşkil olunan festivalda kiçikdən-böyüyə hər kəs bir məqsəd ətrafında toplanıb: sülhlə, ədalətlə soydaşlarımızın öz ata-baba yurdlarına qayıdışına dəstək olmaq.

Aşıq havaları, yurd həsrətli bayatılar, qayıdışa inamı və birliyi əks etdirən yallı nümunələri bir daha göstərdi ki, nə məsafələr, nə də illər insana öz əslini unutdura bilməz. Əgər bu gün hələ də Dərələyəzdə, Zəngəzurda, Vedidə, Göyçədə olan evlərinin açarları sandıqlarda qalırsa, köhnə fotoların, istifadəyə artıq yararsız olan məişət əşyalarının tozu alınaraq saxlanılırsa, deməli, ümid var, qayıdışa inam var. Çünki daim qayğı ilə əhatə olunduqları dövlətə və onun rəhbərinə – Müzəffər Sərkərdə İlham Əliyevin siyasətinə güvənləri sonsuzdur. Prezident İlham Əliyevin bölgədə yaratdığı yeni reallıqlar qarşı tərəfə açıq mesaj verir ki, qərbi azərbaycanlıların öz ata-baba yurdlarına qayıdışı qaçılmazdır.

"Qərbi Azərbaycana qayıdış" konsepsiyasından irəli gələn məsələlərin elmi müstəvidə araşdırılması, ictimai və mədəni fəaliyyətlər vasitəsilə bu ideyanın daha geniş auditoriyaya çatdırılması da konqres-festivalın əsas mahiyyəti idi. Festival bizi bir anlıq tarixi yurd yerlərinə – Zəngəzura, İrəvana, Zəngibasara, Kərbibasara, Vedibasara, Göyçəyə, Dilicana, Dərələyəzə, Şörəyelə, Sərdərabada, Qırxbulağa apardı. Milli dəyərlərin, tarixi-mədəni irsin, yurd həsrətinin, Vətən sevgisinin, əzmin, səbrin, iradənin cəm olduğu bu festival möhtəşəmliyi ilə yadda qaldı. Bu festival həm də Zəngəzur dəhlizinin bir addımlığında birliyimizin göstəricisi, yurd yerlərinə qayıdışın addım səsləri idi. Biz bizim olan yurd yerlərinə – Qərbi Azərbaycana qayıdacağıq. Qarabağa, Şərqi Zəngəzura qayıtdığımız kimi…



# Bu abidəni qorumaq ruhumuzu, kimliyimizi, gələcəyimizi qorumaqdır



Tarixən memarlıq, sadəcə, sığınacaq qurmaq, binalar ucaltmaq və ya hər hansı abidəni inşa etmək sənəti olmayıb. O həm də cəmiyyət inancını, fikrini, dünyagörüşünü daşlara naxışlarla həkk etmə üsuludur. Elə bu mənada, Naxçıvanda İslam mədəniyyətinin, Şərq memarlığının incə, eyni zamanda əzəmətli nümunələri olan tarixi məscidlərimiz, sadəcə, bizlər üçün ibadətgah deyil, həm də zamanın donmuş, daşlaşmış yaddaşıdır. Əsrlərin sınağından keçmiş, üzərində tarixin izlərini daşıyan bu müqəddəs məkanlar həm də şəhərimizin ruhudur.

İdeoloji çevrilişlərə sinə gərərək günümüzə qədər gəlib çatan mənəviyyat qalalarından birindəyik – Naxçıvan şəhərindəki Came məscidində. Bu məscid, sadəcə, daşdan, kərpicdən ibarət deyil. O həm də Naxçıvanın mədəniyyət pasportudur. Bəzən şəhərin qəlbini bürüyən o xəfif dumanın içindən süzülüb gələn azan səsi yalnız bir ibadət çağırışı olmur, həm də daşların, tarixin sükutdan yenidən canlanmasına səbəb olur.

Tarixi bir məscidin qapısından içəri addım atarkən insanı, ilk növbədə, qəribə bir sükut, dinclik qarşılayır. Çöldəki müasir həyatın səs-küyü, təlaşı bu qədim daş divarların arxasında sanki yox olub gedir. Naxışlı pəncərələrinə baxdıqda yuxarıdan süzülən Günəş şüaları daxildəki toz zərrəcikləri ilə birləşərək məkana mistik bir hava qatır. Başını yuxarı qaldırıb günbəzə baxırsan. İçəridə pıçıltı ilə danışarkən səsin divarlara dəyərək əks-səda verməsi qədim memarların mühəndislik zəkası sayəsində məscidin daxilində mükəmməl bir iqlim yaradır. Bu zaman insanın daxilində eyni bir ruhun fərqli təzahürləri döyünür: Allaha olan sevgi və sənətə olan bu qədər bağlılıq.

Ayaqqabılarımızı çıxarıb qalın, naxışlı xalçaların üzərinə addım atdıqca içərinin sərinliyi insanı valeh edir. Məscidin axundu Nəbi Salahovla söhbətləşirik. Deyir ki, Came məscidi zaman-zaman dağıntılara məruz qalsa da, aparılan restavrasiya işləri onun ilkin əzəmətini qoruyub saxlayıb: “1918-ci ildə ermənilərin Naxçıvana hücumu zamanı məscidin minarəsi zədələnib. Məhz minarənin dağıdılmasına görə bəzən bura “Şəhid” məscidi də deyirlər. Bu məsciddə, eyni zamanda 300-ə yaxın insan ibadət edə bilər. Ən əsası, bu tarixi abidəmizin ibadət məkanının bir də fərqi ondadır ki, sovet hökuməti dövründə bütün məscidlər bağlansa da, Came məscidi öz fəaliyyətini davam etdirib”.

Məscidin axundunun dediyi kimi, bu məscidlər, abidələr həm də bir millətin tarixinin simvoludur. Onların da taleyi aid olduqları xalqın taleyi ilə birgə yoğrulur: xalq sevinəndə bu məscidlərin minarələrindən zəfər azanları ucalır, xalq kədərlə üzləşəndə isə bu müqəddəs məkanlar yaralanır, lakin heç vaxt mənəvi əzəmətini itirmir. Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Əli Orucov qeyd edir: “El arasında bu məscidə həm də Şəhər məscidi deyirlər. Came məscidi sosial, iqtisadi və ideoloji baxımdan hər zaman ön planda olub. Ümumiyyətlə, tarixi məscidlərimiz keçmişlə gələcək arasında qurulmuş möhkəm mənəvi körpülərdir. Onların minarələrindən yüksələn səs təkcə ibadətə çağırış deyil, həm də tarixin dərinliklərindən gələn, bizi birliyə, sülhə, gözəlliyə və mənəvi saflığa səsləyən əbədi bir pıçıltıdır. Düşünürəm ki, nə qədər ki bu məscidlərimiz qorunub saxlanılır, belə tarixi abidələr ucalır, xalqın yaddaşı və ruhu da eləcə uca və sarsılmaz qalacaqdır”.

“Daşlar bəzən insanlardan daha sadiq şahid olurlar”, – deyirlər. Onlar üzərlərindəki hər bir zərbənin və hər bir sevgi toxunuşunun yaddaşını əsrlərlə qoruyub saxlamağı bacarırlar. Tarixi Came məscidinin memarlıq fəlsəfəsində diqqətçəkən məqam isə keçiciliklə əbədiliyin vəhdətidir. Şərq memarlığında tətbiq olunan o mürəkkəb həndəsi naxışlar, sonsuzluğa doğru uzanan motivlər və göy üzünü simvolizə edən günbəzi, minarəsi insana bu dünyanın müvəqqəti, Tanrının və mənəvi dəyərlərin isə sonsuz olduğunu xatırladır.

Pəncərələrdən daxil olan Günəş şüaları günün fərqli saatlarında məscidin daxilini bir rəssam fırçası kimi boyayır. Bu sonsuz gözəlliklərin hər gün şahidi olan Nəbi Salahov deyir ki, sanki öncədən hesablanan işıq və kölgə oyunları elə onu bənzərsiz bir xəyallara aparır. Xatirələrini bölüşür bizimlə, uzun illərdir, Came məscidinin sakinidir, “Evimdir bura”, – deyir, silinməz xatirələri var burada: “Bura bəndənin və ruhunun Allahla mənəvi dialoq qurduğu məkandır. İslam mədəniyyətində, mənəviyyatında məscidlər insanın öz yaradanı ilə baş-başa qaldığı, ruhunun dinclik tapdığı ən saf yerdir. Saysız-hesabsız xatirələrimdən biri də mənim gənc yaşlarımda – Ulu Öndər Heydər Əliyevin Naxçıvanda çalışarkən buraya tez-tez gəlməsi idi. Hər zaman müqəddəs günlərdə sakit və tək gələr, burada əyləşər, moizələrə qulaq asar, insanlarla söhbət edərdi. Deyirdi ki, ***“Mən bura uşaqlıqdan gəlirəm, hər zaman atamla gələrdim. Kənarda əyləşib sakitcə minarədən oxunan azanı, moizəni dinləyərdim”.*** Ümumiyyətlə, Ümummilli Lider burada çalışarkən nəinki Came məscidini, hətta Naxçıvanda olan digər tarixi, dini yerləri tez-tez ziyarət edərdi, onların bərpası üçün mühüm qərarlar verərdi”.



Tarix üzrə fəlsəfə doktoru Asəf Orucov isə deyir ki, Came məscidi XVIII əsrə aid ölkə əhəmiyyətli



dini memarlıq abidələrindən biridir: “Məscidin üzərindəki kitabədə yazılır ki, bura XIX əsrdə Məhəmməd Cəfər ağanın dəstəyi ilə bərpa olunub. Xalq arasında yayılan rəvayətlərə və bəzi tədqiqatçıların da fikirlərinə görə, bu məscid XII əsrdə Atabəylər dövrünə aid Cümə məscidinin, xarabalıqları üzərində inşa olunub. Məscidin memarı isə Məhəmməd Təqi olub. Kitabədə qeyd edilir ki, məscidin memarının kim olduğunu bilmək üçün, 8-ci imamdan sonra gələn imamın adaşıyam. 8-ci imam Rza olur və 9-cu imam isə Məhəmməd Təqidir. Deməli, buranın memarı Məhəmməd Təqi olub. Məscid XVIII əsrdən bu günə qədər, sovet hakimiyyəti dövründə belə qorunub saxlanılıb. Ümumiyyətlə, məscidin bir günbəzi, bir minarəsi olub”.

Asəf Orucov onu da vurğulayır ki, Məhəmməd Cəfər tərəfindən yenidən bərpa olunan məscidin məsrəflərini ödəməkdən və mücavirlərdən ötrü çay yuxarısında 2 dükan ayrıldığı da qeyd olunub. Bir də burada, yəni şəhərin bu hissəsində Yuxarı çay vardı, hansı ki, “Bazar çayı” da adlanırdı. Bazar çayı vaxtilə şəhərin ortasından, elə bu məscidin yaxınlığından keçirdi və üstü açıq idi. Ümumi olaraq götürsək, bu məsciddə bəzi elementlər var ki, digər memarlıq məktəbləri ilə eynilik təşkil edir, ancaq bura, əsasən, Naxçıvan memarlıq məktəbinə xas olan abidədir.

Came məscidindən ayrılarkən minarəsindən ucalan azan səsi şəhərə yayılır, ayaq saxlayırıq. Bu səs, sadəcə, ənənənin xatirəsi deyil, bəzən öz köklərindən qopan müasir dünya insanı üçün qədim abidəmizin, məscidimizin həm də bir lövbər rolu oynadığını göstərir, insana aşılayır. Bizə kim olduğumuzu, haradan gəldiyimizi, hansı böyük bir mədəniyyətin varisləri olduğumuzu xatırladır. Bu abidəni qorumaq, sadəcə, onun yağış suyunun yuduğu qədim daşlarını, kərpiclərini qorumaq deyil, öz ruhumuzu, kimliyimizi, gələcəyimizi qorumaq deməkdir. Anlayırıq ki, təqvimlər dəyişsə də, Came məscidinin bu ruhu heç vaxt dəyişməyəcək.

**Ceyhun MƏMMƏDOV**

# İllərin zəhməti öz bəhrəsini verib



Vətən uğrunda canından keçən qəhrəmanlarımızın bizə əmanət qoyduğu övladlar bu gün öz nailiyyətləri ilə qürur mənbəyinə çevrilirlər. Onların hər bir uğuru həm şəhid atalarının ruhunu, həm də bizi sevindirir.

Bu gün haqqında danışacağımız gənc qazandığı hər uğurla şəhid atasının adını ucaldan Məhəmməd Cəfərovdur. Atası şəhid kapitan Elnur Cəfərov Vətən uğrunda canını fəda edərək əbədiyyətə qovuşanda Məhəmmədin cəmi dörd yaşı var idi. Atası ilə uzun illərin xatirələrini bölüşmək ona qismət olmasa da, o, atasının qəhrəmanlığı ilə böyüyüb, onun adına layiq övlad olmağı özünə ən böyük məqsəd seçib. Bu gün qazandığı hər nailiyyətlə sanki atasının yarımçıq qalan arzularını yaşadır, onun ruhunu qürurlandırır.

İllərin zəhməti, əzmi və məqsədyönlü hazırlığı öz bəhrəsini verib. Məhəmməd qəbul imtahanında 650 bal toplayaraq böyük uğura imza atıb. Gələcəkdə hüquqşünas olmaq arzusunda olan Məhəmmədin qazandığı yüksək nəticə ilə qarşısına qoyduğu məqsədə doğru inamla addımladığını sübut edib. Onun əldə etdiyi bu uğur təkcə bir abituriyentin nailiyyəti deyil, həm də şəhid övladlarının güclü iradəsinin, Vətən sevgisinin və əzmkarlığının parlaq nümunəsidir. Məhəmmədin uğuru bir daha göstərir ki, qəhrəmanların övladları da öz həyat yollarında qəhrəmanlıq ruhunu yaşatmağı bacarırlar.

Hüquq sahəsində təhsil almaq istəyən Məhəmməd gələcəkdə vicdanlı, ədalətli və prinsiplərinə sadiq bir hüquqşünas olaraq cəmiyyətə xidmət etməyi qarşısına məqsəd qoyub. O bu yolda atasının şərəfli ömür yolunu özünə nümunə seçir. Atası şəhid kapitan Elnur Cəfərov kimi Məhəmməd də gələcək fəaliyyətində haqqın və ədalətin yanında olmağı ən böyük amal hesab edir.

Atasının müqəddəs adını daim uca tutmağa çalışan Məhəmməd bu uğuru ilə bir daha sübut edir ki, şəhidlərimizin əmanətləri onların arzularını yaşatmağa, ölkəmizin gələcəyini qurmağa qadirdirlər. Onun qazandığı uğur ailəsinin, müəllimlərinin və onu tanıyan hər kəsin sevincinə çevrilib.

Bu gün Məhəmməd Cəfərovun əldə etdiyi nəticə bizə bir həqiqəti yenidən xatırladır: şəhidlər ölmür, onların adı da, amal uğrunda böyüyən övladları da yaşayır. Vətən uğrunda canından keçən qəhrəmanların əmanətləri yeni uğurlarla Azərbaycanın gələcəyini işıqlandırmağa davam edir.

**Zəhra VƏLİYEVA**

## Dünya çempionu olmaq ən böyük hədəfimizdir




Bakıda keçirilən pankration və qrappling üzrə Azərbaycan birinciliyi Naxçıvan idmançılarının növbəti qələbəsi ilə yadda qalıb. Baş məşqçi Xəyal Abdullayevin rəhbərliyi ilə yarışa yollanan "Turan" döyüş klubunun yetirmələri muxtar respublikaya 27 medal qazandırıblar.

Həm pankration, həm də qrappling idman növündə rəqiblərinə şans tanımayaraq iki qızıl medal qazanan Nürəddin Əliyev qələbəyə gedən yolun heç də asan olmadığını vurğulayıb: "Bakıya getməmişdən öncə məşqlərdə çox əziyyət çəkmişdik, hər gün saatlarla hazırlaşırdıq. İki fərqli növdə birdən vuruşmaq adama böyük məsuliyyət yükləyir, həm də fiziki olaraq çox çətindir. İlk görüşlərdə bir az həyəcan var idi, amma rinqə çıxan kimi ancaq qələbəni fikirləşdim. Rəqiblərim zəif deyildilər, xüsusən final döyüşləri çox gərgin keçdi. Naxçıvana iki qızıl medalla qayıtmağı çox istəyirdim və şükürlər olsun ki, buna nail oldum. İndi qarşıda dünya çempionatı var. Yarışın Bakıda keçirilməsi bizim üçün böyük şansdır. Doğma azarkeşlərin qarşısında dünya çempionu olmaq və himnimizi səsləndirmək ən böyük hədəfimdir".

Pankration idman növündə bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə ucalan Əsgər Heydərov isə bu birinciliyin onun üçün əsl xarakter sınağı olduğunu diqqətə çatdırır: "Pankration həm fiziki, həm də psixoloji cəhətdən çox ağır idman növüdür. Burada anidən verdiyin yanlış bir qərarla sən hər şeyi itirə bilərsən. Ona görə də yarış boyunca hər döyüşə final görüşüymüş kimi yanaşdım və elə mübarizə apardım. Pankrationda saniyələr hər şeyi həll edir, ona görə də bir anlıq diqqətsizlik məğlubiyyətə apara bilər. Qələbə anında keçirdiyim sevinci izah etmək çətindir, çiyinlərimdən böyük bir yük götürüldü sanki. Amma əsl sınaq indi başlayır. Dünya çempionatına daha ciddi hazırlaşmalıyıq ki, orada da gücümüzü göstərə bilək".

Qrappling idman növündə parlaq qələbələr qazanaraq qızıl medala sahib çıxan Həmid Əkbərli isə bu idman növünün fəlsəfəsindən və yarışın gedişatından söz açıb: "Qrapplinqdə təkcə güclə qalib gəlmək olmur, gərək hər gedişi əvvəlcədən düşünəsən. Bakıdakı rəqiblərim fəndləri yaxşı bilirdilər, müdafiə olunmaq çətin idi. Məşqçinin kənardan verdiyi məsləhətlər və vaxtında etdiyi xəbərdarlıqlar qələbəmdə böyük rol oynadı. Komanda olaraq 27 medal qazanmağımız çox böyük nəticədir, bizim necə güclü komanda olduğumuzu göstərir. İndi məqsədim Bakıdakı dünya birinciliyində bu titulu qorumaq və qızıl medalı yenidən qazanmaqdır".

Azərbaycan birinciliyində əldə olunan uğurlar idmançılara qarşıdakı beynəlxalq yarışlara daha inamla hazırlaşmağa stimul verir. Qazanılan medallar isə Naxçıvanda döyüş idman növlərinin inkişafının və gənc idmançıların potensialının göstəricisi kimi qiymətləndirilir.

✍ **Elnurə CƏFƏROVA**

## OXUCULARIN NƏZƏRİNƏ!
## "ŞƏRQ QAPISI" qəzetinə abunə yazılışı davam edir

Abunə yazılışı redaksiyaya müraciət etməklə aparılır.

**1 illik - 112** (yüz on iki) **manat**
**6 aylıq - 56** (əlli altı) **manat**
**3 aylıq - 28** (iyirmi səkkiz) **manat**
**1 aylıq - 9** (doqquz) **manat**

**Hörmətli oxucular!**

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel: 544-52-52)** zəng vura bilərsiniz.


100 ilin qəzeti
ŞƏRQ QAPISI
www.serqqapisi.az
Qalib dövlətin Zəfər Ordusu
Ulu Öndər Heydər Əliyevin qələmi ilə yazılan ordumuzun şanlı tarixi
Prezident İlham ƏLİYEV:
"Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir."

## Cüdo üzrə Naxçıvan birinciliyinin qalibləri məlum olub




İlham Əliyev adına Olimpiya İdman Kompleksində yeniyetmə cüdoçular arasında muxtar respublika birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş yarışda 13 çəki dərəcəsi üzrə 75 cüdoçu medallar uğrunda mübarizə aparıb.

Yarış Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə keçirilib. Federasiyanın beynəlxalq dərəcəli hakimləri Arzu Acalova və Bəhriyyə Hüseynova yarışda hakimlik ediblər.

Nəticələrə əsasən qızlar arasında Zəhra Allahverdiyeva (28 kq), Aylin Əlizadə (32 kq), Laman Bağırova (40 kq), Yasəmən Əliyeva (57 kq), Aynur Xəlilova (63 kq), oğlanlarda isə Bilal Quliyev (34 kq), Ayaz Əliyev (38 kq), Mətin Salahov (42 kq), Məhəmməd Yusifzadə (46 kq), Vəli Əliyev (50 kq), Sadiq Quluzadə (55 kq), Əli İsmayılov (66 kq) və Elmar Qasımlı (+66 kq) müvafiq çəki dərəcələri üzrə birinci yerə sahib çıxıblar.

Sonda ilk üç yerin sahiblərinə diplom və medallar təqdim olunub.

### Yer təkindən istifadə ilə bağlı 7 avqust 2026-cı il tarixdə saat 11⁰⁰-da keçiriləcək hərracın elanı
### Hərrac auksion formasında keçiriləcəkdir

*Culfa rayonu "Xoşgəri I" qum-çınqıl yatağı*

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın mərkəz koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10%) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Xoşgəri I | LOT-1 | 138 500 $m^3$ | 5,0 ha | qum-çınqıl | 1 ilədək | X-565659.09 Y-4314505.98 | 13 850 | 1 385 | 540 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 (Hərracların Təşkili Mərkəzi PHŞ-nin inzibati binası).

Qeyd: Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10% miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42).

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (LOT üzrə) müəyyən edilir:
– ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;
– ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;
– ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1 080,0 (bir min səksən) manat.
4. "Vergiödəyicisinin vergi borcu barədə" arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və ya 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 30 iyul 2026-cı il saat 18⁰⁰-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına" uyğun ərizə (bundan sonra "ərizə") təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər LOT üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 **(Əlaqələndirici şəxs: Rəsulov Ramiz, telefon: (036) 545-34-85, 050-723-85-25)** ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10% miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

## Elan

"Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, "Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağı 3 avqust 2026-cı il tarixdə saat 15⁰⁰-da Naxçıvan şəhəri, N.Tusi küçəsi 3/2 38 ünvanında yerləşən cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyi aşağıdakılardır:

*1. Cəmiyyətin ləğv edilməsi;*
*2. Təsviyəçinin təyin edilməsi və onun səlahiyyətlərinin müəyyənləşdirilməsi;*
*3. Cəmiyyətin Müşahidə Şurasının, İdarə Heyətinin və Təftiş Komissiyasının səlahiyyətlərinə xitam verilməsi;*
*4. Digər məsələ.*

Səhmdarlar "Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının gündəliyinə dair sənədlərlə cəmiyyətin inzibati binasında tanış ola bilərlər.

## *Bildiriş*

Naxçıvan Muxtar Respublikasının 10 aprel 2026-cı il tarixli 17-VII QN nömrəli Qanununa əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı ləğv edilmişdir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

Ləğvedici: Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6***
***Əlaqə telefonu: 036-544-00-60***
***E-mail: info@neconomy.gov.az***

## *İtmişdir*

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndi, 3-cü küçə, 42A-da yaşamış Hümbətova Müşkünaz Hümbət qızının adına olan AA-006139 nömrəli, 104013005827 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Novruzov Ədalət Məhəmməd oğlunun adına olan Yarımca kəndində yerləşən fərdi yaşayış evinin 2459 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Həsənov Firdovsi Vəli oğluna məxsus olan JN-1580A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ərəfsə kənd sakini Hüseynov Hüseyn Əbdülrəhman oğluna məxsus JN-241A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Eyvazov Kazım Əli oğluna məxsus olan 16.10.2023-cü il tarixli, A-036210 inventar nömrəli, 103013041220 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Əsgərova Balabəyim Cəlil qızının adına verilmiş JN-219B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Hüseynov Həsən Nağı oğlunun adına verilmiş JN-337A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

## *Allah rəhmət eləsin*

"Şərq qapısı" qəzetinin kollektivi redaksiyanın əməkdaşı Səhnə Tağıyevaya həyat yoldaşı

**SƏMƏNDƏR TAĞIYEVİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

ŞƏRQ QAPISI
**Baş redaktor:**
**RƏMZİ TAHİRLİ**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 128

*Nömrəyə məsul:* **Zəhra Vəliyeva, Rafiq Təhməzov, Elnurə Cəfərova**
*Dizayner:* **Həbibə Allahverdiyeva**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*